# Agentlik: COP29-la bağlı ölkəmizə gələcək qonaqlar üçün 25 tur proqramı hazırlanaraq aidiyyəti üzrə təqdim olunub

COP29 kimi mühüm tədbirin ölkəmizdə yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə turizm sənayesinin texniki və təşkilati baxımdan tam hazır vəziyyətə gətirilməsi istiqamətində fəaliyyətlər davam edir. Azərbaycana bu tədbirlə əlaqədar səfər edəcək qonaqların rahat formada yerləşdirilməsi üçün mayın 23-dən etibarən vahid onlayn rezervasiya platforması istifadəyə verilib. Qeyd edək ki, həmin platforma üzrə rezervasiyaların qəbulu davam etməkdədir. "COP29-accommodation.bnetwork.com" ünvanında yerləşən platformada hər bir ulduz dərəcəsinə uyğun hotellər və yaşayış kompleksləri barədə məlumatlar təqdim olunur.

Bu barədə AZƏRTAC-ın sorğusuna Dövlət Turizm Agentliyindən məlumat verilib.

Bildirilib ki, yerləşdirmə yerlərinin ümumi həcmi və növləri, təhlükəsizlik, logistika baxımından əlçatanlığı və qonaqlara xidmətlə bağlı digər sahələr beynəlxalq təcrübəyə və meyarlara əsasən götürülür.

Həmçinin Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazisində fəaliyyət göstərən 300-dən çox yerləşmə yerində audit həyata keçirilib və onlardan 220-yə yaxını ulduz dərəcəsi əldə edib. Bunlardan 10 hotel 5 ulduza, 20 hotel 4 ulduza, qalanları isə müvafiq olaraq digər ulduz dərəcələrinə sahib hotellərdir.

Hotellərə əlavə olaraq ehtiyac yarandığı təqdirdə yaşayış kompleksləri, villa kompleksləri, istirahət mərkəzləri və digər yaşayış yerlərinin istifadəsi nəzərdə tutulur. COP29-da iştirak etmək istəyənlər üçün şəhərin istənilən ərazisində evlərin kirayəsi prosesi digər platformalar (airbnb, booking və s.) vasitəsilə mümkündür.

Xidmət keyfiyyətinin artırılması məqsədilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda fəaliyyət göstərən 300-ə yaxın yerləşmə obyektinin 2000-ə yaxın personalına 12 modul üzrə ixtisaslaşmış praktiki peşə təlimləri, eləcə də dayanıqlılıq üzrə təlim, yerləşmə yerlərində mətbəx idarəedilməsi və qastronomiya ilə bağlı (veqan və vegenterian menyuların hazırlanması daxil olmaqla) təlimlər keçirilməkdədir.

Bundan əlavə 200 turizm bələdçisi sertifikatla təmin edilib və tədbir müddətində hotellərə dəstək olmaq üçün turizm könüllülərinə təlimlər keçirilib.

COP29 tədbiri ilə bağlı ölkəmizə gələcək qonaqlar üçün yarımgünlük, tamgünlük və gecələmə ilə 25 tur proqramı hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Bakı ərazisində İçərişəhər, Yanardağ, Atəşgah, Qobustan kimi qoruqlar, milli parklar və digər turistik əhəmiyyətli yerlərlə yanaşı, Bakı-Şimal, Bakı-Şimal-Qərb və Bakı-Cənub istiqamətində olan turizm marşrutları üzrə də əsas destinasiyalar əhatə olunub.

**AZƏRTAC**
**2024, 28 oktyabr**